*Hekayə*

# Novruz xatirələri



Rüfət Rüstəmov

Novruz bayramının gəlişi insanlara qol-qanad verir, yaşamaq hissini gücləndirir. İnsana elə gəlir ki, onun üçün yeni bir həyat başlayır. Ulu babalarımız demişkən, mart ayı çox şıltaq aylardan biridir. Bir baxırsan, qar yağır, bir baxırsan ki, gün doğub. Bir sözlə, hər anın öz gözəlliyi var. Rayonlardan gəlmiş insanların çoxu bayram günlərində, əlinə fürsət düşdükcə ata-baba yurdunu ziyarət etmək üçün kəndə üz tuturlar. Kəndin gözəlliyini, o həyatı yaşamış insanlar daha yaxşı bilir. Kənd həyatı dözümlülük tələb edir. Mən də uşaqların anasını götürüb ata yurdumuza gəldim. Biz Novosaratovkaya çatanda hər tərəfdə qar ərimişdi. Qar yalnız dağların başında və ətəklərində görünürdü. Sürücümüz Sadiq çox mərifətli şofer idi. Bizim yanımızda siqaret çəkməkdən də çəkinirdi. Maşını bizim evin yanına kimi sürdü. Yol bir az palçıqlı olduğuna görə maşın gedərkən çətinlik oldu. Qonşuların köməyi ilə Sadiqi yola saldıq.

Qazı, suyu qaydasına salırdıq ki, qar yağmağa başladı. Qaldığımız evin hər tərəfində pəncərə olduğuna görə təbiəti seyr etmək çox asan idi. Çoxdan arzusunda olduğum quşbaşı qarın yağması, insanı ruhən təzələyirdi. Bu mənzərə istəsək də, istəməsək də adamı keçmişə aparır. Orta məktəbdə oxuyarkən, uşaqlarla qartopu oynadığım günlər. Əlimizə fürsət düşəndə evdən uzaqlaşırdıq ki, valideyinlərimiz bizi tapmasınlar. Doyunca xizək sürməsək, qartopu oynamasaq, evə qayıtmırdıq. Rəhmətlik Rüstəm, Cavanşir, qohum-əqrabalardan Rəşid, Aqil (Xəlil) və başqaları ilə doyunca oynayardıq. Evdəkilər bizim bu hərəkətlərimizə məhəl qoymayırdılar. Ona görə ki, biz valideyinlərimizin bir sözünü iki etməzdik. Belə xatirələri yaddaşdan silmək çox çətindir. Bir saatdan sonra hər tərəf ağappaq idi. Ətrafı seyr edəndə, adama elə gəlir ki, o dağlar, təpələr sənə doğru gəlib. Hiss etmirsən ki, o uzaq məsafə qarın hesabına sənə yaxınlaşıb. Hava sakit olduğuna görə köhnə meyvə ağacları nurani ağsaqqallara oxşayırdı. Vaxt axşama doğru olduğuna görə yavaş-yavaş qaranlıq düşürdü. İnsan oğlu əvvəlcədən fikirləşsəydi, belə bir mənzərə yaratsın, alınmazdı. Ona görəki hər şey, sahibi tərəfindən idarə olunur. Kəndin axşama doğru olan mənzərəsi adama keçmişi xatırladır. Bir tərəfdə, sağa-sola şütüyən qaratoyuqların səsi, qonşu tərəfdən yem gözləyən itlərin zəncir gəmirmələri və s. Bu bir senarisi olmayan tiyatroyu xatırladır. Bizim gəldiyimizdən xəbər tutan Rübabə xanım, bizim üçün yemək hazırlayıbmış. Sağolsun!

Uşaqların anasını da götürüb Çingiz gilin evinə getdik. Allah bol eyləsin, adına layiq süfrə açmışdı. Oturduq, yedik, içdik. Evə getməyə hazırlaşdıq ki, bizə şad xəbər verdilər. Fikrətin ikinci inəyi doğmuşdu. Bu hadisə bir ailənin yaxşı dolanışığı üçün böyük şərtdir. Sağollaşıb evə gəldik. Evimiz yaxşıca isinmişdi. Yatdıq, səhər çox erkən oyandıq. Hər tərəf ağappaq idi. Ağaclar da libasını dəyişmişdi.

Mən artıq həsrətində olduğum o anları yaşayırdım. Qartopu oynamaq keçirdi könlümdən. Ətrafa baxdım, hər tərəfdə sakitlik hökm sürürdü. Səhər-səhər xanım yaxşı süfrə açmışdı. Süfrəmizi gözəlləşdirən qohum-əqrabanın gətirdikləri nehrə yağı, təzə şor, süd, kənd yumurtası və s. Rahat yeməyimizi yedikdən sonra qarda gəzməyi, evə -eşiyə göz gəzdirməyi qərara aldım. Bu işləri görə-görə yuxum gəlməyə başladı. Evə gəldim sobanın yanında təzəcə düzəltdirdiyim taxta uzandım. Çox şirin yuxuya getdim. Bir saatdan sonra oyandım. Taxtın üstündə keçmişi xatırlayırdım. İlahi nə qədər şirin xatirələr var deyə düşünürkən: - Bir səs məni xəyallar dünyasından ayırdı. Ayaqqabımı geyinib həyətə çıxdım.

Çingizin qəşş edib, ürəkdən gülməsi məni çox sevindirdi. O mərasimi seyr etmək könlümdən keçdi.

Çingiz yaşadığı tərəfə getdim. Mən yaxınlaşdıqca səslər çoxalırdı. Çingizin yeganə nəvəsi Fidanın səsi məni məftun etdi. O, nənəsi Rübabə xanımın, xalası Rəfiqənin, Sevincin, Aynurun, babası Çingizin əhatəsində qarla oynayır, hamını öz hərəkətlərinə cəlb etməyə çalışırdı. Çingiz nəvəsinin bu hərəkətlərinə həm sevinir, həm də narahatlıq keçirirdi, üşüməsindən qorxurdu. Fidan öz aləmində qarla oynamağın ləzzətini çıxarırdı. Çingiz məni görüb yanıma yaxınlaşdı, qucaqlaşdıq, üzümdən öpdü, dedi: "görürsən, babası, biz də Fidanın hesabına bir az qarla oynadıq." Təbiətin kəndimizə verdiyi gözəllik məni məftun etmişdi. Hər tərəf bu qar kimi çox təmiz və pak idi. Bircə gün bu mənzərəni yaşayanın xarici görünüşündə müsbətə doğru yenilik hiss olunurdu. Bu dəfə baxdım ki, Çingizin gözlərində məhəbbət qığılcımı var. Onun bir söhbəti yadıma düşdü. Məzahiri xatırladı! Burada keçirdikləri günlər artıq tarixə çevrilmişdi. O mənə keçirdiyimiz nişan mərasiminə görə təşəkkür edirdi.

- Rüfət əmi, indi bizim hamı kimi ürəkdən sevinməyimizə haqqımız var. Məzahirin ruhu şad olsun!

Təhminə qızımız bizim arzumuzu çin etdi. Xoşbəxt olsunlar. Bu söhbəti bir anlıq xatırladım.

- Əmi, nə fikirə getdin, görürsən nəvən qardan ayrılmaq bilmir. Uşağın xasiyyəti belədir, buraxsan axşama qədər oynayar.

Fidan məni görüb sevinirdi, ona öpücük göndərdim, əlini dodağına qoyub qarşılıq verdi. Fidanın bu hərəkəti məni dağa döndərmişdi. Məni maşın gözlədiyinə görə onlardan ayrılası oldum. Novosaratovkaya inşaat malları satılan mağazaya getməyi planlaşdırmışdım.

Ertəsi günü qar əriməyə başlamışdı. Evimizin ətrafı, ən çox da arxa hissəsi kiçik meşəni xatırladırdı. Quşların toplaşdığı yer. Burada müxtəlif növ quşlara rast gəlmək mümkündür.

Elə kəndin gözəlliyini qoruyubsaxlayan quşların səsidir. Adama elə gəlir ki, bu quşların hamısını yaxşı tanıyırsan. Ən çox da sərçələrin sağdan-soldan yem üçün uçuşları, özü bir gözəllikdir. Şair Akif Əhmədgil demişkən, sərçələr ruzi-bərəkətin bolluğundan xəbər verir. Təbiətin yaxın dostlarından biri də sərçələrdir. Əvvəllər novruzda qazanlar asılardı, novruz əriştəsinin ətri hər tərəfdə hiss olunurdu. O qazanlardan çıxan əriştə plovunun ətri adamı bihuş edirdi.

İndi elə bil ki, təbiət də insanlar kimi buna həsrətdir. Kənd camaatının çoxu, qış aylarında köçəri quşlar kimi Bakıya övladlarının yanına üz tuturlar. İndi baxırsan ki, tək-tük evdə qazan qaynayır. Buna da şükür. Məhləni gəzərkən çərşəmbə günləri atılmış bir lopaya rast gəldim. Onu yerdən götürdüm, iylədim. Neftin iyisi tam getməmişdi. Bu lopanın təzə olduğundan xəbər verirdi. Əmi oğlu Azad pəncərənin qabağında oturub mənim hərəkətlərimi izləyirmiş, mən lopanı götürüb iyləyərkən pəncərəni açıb məni çağırmağa başladı. İtirmə o mənim lopamdır, dedi.

Yadıma bir hadisə düşdü. Camaatımız kortof daşıyan sürücülərdən qışa neft tədarükü üçün 100 litirlik çəllək alardılar. Bunun bir dənəsini də atam almışdı. Bu çəlləyin içində vaxtilə benzin olubmuş. Atam çəlləyi boşaltdıqdan sonra balkonun bir kənarına qoymuşdu. Bu əmi oğlu Azad altıncı sinifdə oxuyarkən çərşənbə axşamlarının birində lopa düzəldir və başlayır neft axtarmağa, benzin çəlləklərinin ağzını açır ki, baxsın görsün ki, orada neft varmı. Çəlləyin içi qaranlıq olduğuna görə kibrit yandırıb baxmaq istəyir. Çəllək həmişə günəşin qabağında olduğuna görə içərisinə qaz yığılıbmış. Kibritin alovundan çəllək dəhşətli partlamışdı. Azadın üzü-gözü tanınmaz hala düşmüşdü. Onun əvvəlki vəziyyətinə doğma əmisi doktor Fərhad gətirmişdi. Mən ondan zarafatla soruşdum ki, lopanın neftini haradan tapdın. Onu gülmək tutdu, sataşırsan, qardaş!

Bir anlığa Azad da o günləri xatırlamışdı. Bildirdi ki, neft məsələsini niyə soruşdum.

Kənd həyatının üçüncü günü çox maraqlı keçdi. Qohum-əqrabalar, qonşular günəşli havada təsərrüfat işlərinə başlamışdılar. Bəziləri torpaq sahələrini əkdirmiş, bəziləri peyin daşımaqla məşğul idilər. Kənddəki canlanma adamın ürəyini dağa döndərirdi. Mənə ən çox ləzzət verən qoyunların arxası ilə qaçışan yumruq boyda quzular idi. İnsan oğlunun məhəbbətini qazanmış bu balaca varlıqlar o qədər şirindilər ki, hətta analar-atalar doğma evladlarına quzum deyə müraciət edirlər. Körpə uşaqların sevimlisi olan bu quzular, anaların ətrafında qaçışır, arada bir də qabaq ayaqlarının dizlərini yerə qoyaraq analarını əmirdilər. İlahi, nə gözəl mənzərədir. Dünyadan xəbərsiz bu varlıqların çıxardıqları oyunları insan seyir etdikdə bütün dərdi - qəmi unudurlar. Mən də, bu mənzərədən öz payımı götürüdm. Qonşunun ucadan gələn səsi məni bu zövqdən ayırdı. Adamlar da onları tutub öpüb-oxşamaqdan zövq alırdılar.

Mal yemindən korluq çəkən kənd adamları, qoyununu, quzusunu, toyuğunu, hinduşkasını torpaq sahəsinə buraxmışdılar. Günəş torpağı qızdırdıqca, torpaqdan qalxan buxar, bayram günləri oğuz ellərində çatılmış ocaqların tüstüsünə bənzəyirdi.

Kənd camaatının hörmətini qazanmış, öz lətifələri ilə hamını heyran edən Fikrət bəyə rast gəldim. Oğlu Rəvanla biz tərəfə gəlirdi. Bir az giley-güzar etdim, indiyə qədər niyə görükmürdün, dedim. Rəvan bizim söhbətimizə çox diqqətlə qulaq asırdı.

Gördüm ki, Rəvan şalvarımın bir tərəfindən tutub dartışdırır. Aşağı əyildim, onu bərk-bərk öpdüm. Çox şirin oğlandı. "Baba, mən səni tanıyıram, - dedi, - sən Rüfət babasan". Bu deyilişdə olan şirinliyi duymaq üçün Rəvanın yanında olmaq lazımdır. Fikrəti evə dəvət etdim. Oturub çay içdik, nərd oynadıq. Dolanışıqları ilə maraqlandım. Çox şükür, sağmal inəkləri var. O da kənd camaatı kimi çətin də olsa, qışı başa vururdu. Çayımız təzələnəndə Rəvan çaydan imtina elədi.

- Rüfət baba, mənə bulaq suyu ver.

Mən fikirləşdim ki, uşaqdı, boğazı ağrıyar, atası gülümsündü.

- Rüfət əmi, yarım stəkan ver içsin.

Rəvan suyu çox iştahla içdi.

- Baba, bu suyu atam bulaqdan doldurub, çox ləzzətlidir.

Rəvan hazırlıqda oxuduğu barədə məlumat verdi. "Dərsə gedən bir uşaq" şeirini bir neçə dəfə əzbərdən dedi. Onun sevincinə biz də qoşulduq.

Rəvanın bulaq suyuna verdiyi qiymət məni çox sevindirdi. Düşündüm, altı yaşında bir uşağın içdiyi suyu yüksək qiymətləndirməsi onun parlaq gələcəyindən xəbər verirdi. Mən arzu edirəm ki, xalqımın böyüməkdə olan gəncləri Rəvan kimi qaynar bulaqlarımızı, bərəkətli torpaqlarımızı qiymətləndirməyi bacarsınlar.

Novruz bayramının beşinci günü Bakıya qayıtmağa hazırlaşırdıq. Yenə də həyətdə yem axtaran balaca sərçələr diqqətimi çəkdi. Xanımdan xahiş etdim ki, qurumuş çörəyi, torbanın dibində qalan buğdanı məhlənin bir tərəfinə qoyaq ki, o balaca sərçələr ac qalmasınlar. Mənim bu hərəkətim Əmiraslan kişinin diqqətini çəkmişdi. Ürəkdən güldü. Sizə halal olsun!

Ay əmioğlu, bir-iki gündən sonra hamı məhləsini əkdirəcək. Quşlar üçün bolluq olacaq.

Unutma qardaş, belə müqədəs torpağı olan vətənin hətta balaca sərçələri də yemdən çətinlik çəkməyəcəklər. Təki vətən sağ olsun.

**Mart-2015,**
**Gədəbəy-Bakı**

